## *"Yeni Şafak" qəzeti:*

# "Türkiyə parlamentinin arxivləri ermənilərin Anadoludakı vəhşiliklərinə işıq salır"













"Yeni Şafak" qəzeti Türkiyə Böyük Millət Məclisinin (TBMM) 1915-ci ildə və ondan sonrakı illərdə Anadoluda erməni vəhşiliklərini əks etdirən fotoşəkillərin yer aldığı arxiv sənədlərini dərc edib.

AZƏRTAC xəbər verir ki, "Türkiyə Böyük Millət Məclisinin arxivlərindən erməni cinayətlərinə dair yeni sənədlər" sərlövhəli məqalədə qeyd olunur ki, tarixi sübutlar ermənilərin müsəlman əhaliyə qarşı törətdikləri vəhşiliklərin miqyasını açıq şəkildə göstərir.

Digər sənədlər arasında yer alan Ərzurum qubernatoru administrasiyasının 4 fevral 1915-ci il tarixli teleqraf mesajında deyilir: "Artvində ermənilər müsəlmanları diri-diri torpağa basdırırlar. Erməni qiyamçılarına qarşı mübarizə davam edir. Erməni quldur dəstələri dinc əhalinin qırılması məqsədi ilə kəndlərə hücum edir".

26 may 1916-cı il tarixli digər bir arxiv sənədində deyilir: "Vanda qadınlar və uşaqlar ermənilər tərəfindən məscidlərə qovulur, orada diri-diri yandırılır".

1915-ci il mayın 19-na aid məlumatda Parsih Gülbenkyan adlı vəkilin evində aparılan axtarış zamanı dinamit və partlayıcı qurğuların hazırlanması üçün komponentlərin aşkar edildiyi bildirilir.

Nəhayət, 7 mart 1915-ci il tarixli arxiv sənədində deyilir: "Qars və Erdahanda ermənilər tərəfindən öldürülən müsəlmanların sayı 30 minə çatıb. Qadın və uşaqların cəsədləri Məhfuran dərəsinə atılır".

---

Azərbaycan.- 2025.-23 aprel (№ 80).- S.11.